INTERNATIONAL BESTSELLER

# Pendirimi Kim Oğurladı?

İşinizdə və şəxsi həyatınızda Dəyişikliyə uyğunlaşmağın Heyrətamiz bir yolu



DR. SPENCER JOHNSON

KENNETH BLANCHARDIN ÖNSÖZÜ İLƏ

"BİR DƏQİQƏLİK MENECER" bestsellerinin müəllifindən

***www.kitabbul.com/***

***Telegram kitabbul***

**Sadə və mürəkkəb**

*Bu hekayədə təsvir edilən dörd xəyali surət: Koşarca və*

*Koklarca adlı siçanlar, Mırın və Kırın adlı kiçik insanlar bizlərin, yəni şüurlu insanların sadə və mürəkkəb tərəflərini özlərində*

*əks etdirirlər. Burada insanların yaşayış tərzi, irqi, dini, milli mənsubiyyəti, cinsi və digər özəllikləri nəzərə alınmamışdır.*

*Biz insanlar bəzən dəyişikliyin, yeniliyin qoxusunu tez hiss edən, onun fərqinə varan kiçik siçan Koklarca kimi, bəzən isə*

*tez qərar verib cəld hərəkət edən Koşarca kimi davranırıq.*

*Bəzən də başına xoşagəlməz şeylərin gələcəyindən qorxaraq heç bir yeniliyi, dəyişikliyi qəbul etməyən və hadisələrə mü-hafizəkarcasına yanaşıb inkişafa qarşı çıxan Mırın kimi oluruq.*

*Bəzən isə bunun tamamilə əksinə, yəni dəyişikliyin və inkişafın daha yaxşı nəticələr verəcəyini əvvəlcədən görüb, dayanmadan çalışan Kırın kimi davranırıq.*

*Hansı tərəfimizi, hansı xarakterimizi istifadə et-məyimizdən asılı olmayaraq heç vaxt dəyişməyən ortaq bir nöqtəmiz var. Hər birimiz yaşadığımız bu çətin həyatın qaranlıq, mürəkkəb labirintlərində öz yolumuzu tapmaq, gündən-günə dəyişən, inkişaf edən dünyada xoşbəxt və*

*müvəffəq olmaq istəyirik.*

# Hekayənin tarixi

Sizlərə bu hekayənin tarixini danışmağım “Pendirimi kim oğurladı?” adlı kitabın artıq yazılmış olduğunu təsdiq edir və

mən bunu sizlərə danışdığım üçün özümü xoşbəxt hiss edirəm.

Nəhayət, hər birimiz bu gözəl və maraqlı kitabı oxuya və bunu ətrafımızda olan digər insanlarla, dostlarımızla paylaşa bilərik.

Mən bu günü xeyli müddətdir - bir neçə il əvvəl *Dr.*

*Spencer Johnsonun* mənə çox maraqlı olan “Pendir” hekayəsini danışdığı gündən gözləyirəm.

Hekayəni eşidər-eşitməz nə qədər gözəl və maraqlı olduğunu, mənim işim və həyatım üçün nə qədər faydalı olduğunu düşündüm.

“Pendirimi kim oğurladı” hekayəsi bir labirintdə pendir axtaran dörd kiçik və sevimli varlığın yaşadıqlanndan bəhs edir.

Burada “Pendir” həyatımızda sahib olmaq istədiyimiz bir çox şeyin: peşə və ya sənətin, əlaqələrin, münasibətlərin, pulun, böyük bir evin, azadlığın, sağlamlığın, şan-şöhrətin, rahatlığın və hətta qolf, tennis, futbol kimi məşğuliyyətlərin ümumiləşdirilmiş bir forması, metaforasıdır.

Hər birimiz yaşadığımız həyatda öz “pendirimizi” axtarır və onun bizi xoşbəxt edəcəyinə inanırıq. Onu əldə etdikdə çox sevinir və bağlanırıq. Lakin itirdiyimizdə və ya kimsə onu əlimizdən aldıqda çox məyus oluruq və stress keçiririk.

Hekayədəki “labirint” isə həyatda öz məqsədlərimizi,

“pendirimizi” əldə etmək üçün çalışdığımız və zaman sərf etdiyimiz yeri, məkanı, şəraiti əks etdirir. Bu işlədiyimiz şirkət, yaşadığımız cəmiyyət və ya qurduğumuz əlaqələr də ola bilər.

Bu hekayəni demək olar ki, bütün dünyada, müxtəlif ölkələrdə, şəhərlərdə İştirak etdiyim konfranslarda danışıram.

Zaman keçdikcə hekayənin həmin insanların həyatında, işlərində nə qədər təsirli olduğunu və müsbət dəyişiklik etdiyini eşidirəm.

Əlbəttə inanmaq və ya inanmamaq sizin öz seçiminizdir.

Lakin ortada dəyişməz bir həqiqət var. Bu kiçik hekayə onlarla, yüzlərlə, bəlkə də minlərlə insanın karyerasını, ailəsini, hətta həyatını belə xilas etmişdir.

Yüzlərlə nümunədən biri kimi *NBC* kanalının çox tanınmış

xəbər apancısı olan Çarli Consun həyatını göstərə bilərik.

Çarlinin bu kitabdan yararlanaraq həyatına tətbiq etdiyi strategiyalan hər kəs öz həyatına tətbiq edə bilər.

Çarli olimpiada oyunları zamanı idman xəbərlərinin aparıcısı kimi qısa bir müddət ərzində həmkarları arasında böyük uğur qazanmışdı. Lakin olimpiada oyunları sona çatanda qəflətən müdiri ona artıq başqa sahədə işləyəcəyini söyləmişdi. Bu xəbəri eşidən Çarli həmin an yerində donub qalmış və çox məyus olmuşdu. Artıq özünün bu sahədə

gərəksiz olduğunu düşünməyə başlamışdı. Verilən qərarın böyük bir ədalətsizlik olduğunu fikirləşir, əsəblərini cilovlaya bilmir və hadisələrə olan reaksiyası ilə artıq ətrafındakı insanları da incidirdi.

Qısa bir müddətdən sonar Çarli “Pendirimi kim oğurladı”

hekayəsini eşidir. Hekayəni oxuduqdan sonra bir müddət əvvəl düşdüyü durumu xatırlayıb özünə gülür və düşüncələrini dəyişdirməyə başlayır. Artıq dərk edir ki, onun “pendirini”

müdiri “oğurlamışdı”.

O, artıq dəyişikliyə, yeniliyə uyğunlaşmağa çalışırdı.

Zaman keçdikcə yeni bir işin, dəyişikliyin ona nə qədər müsbət təsir etdiyinin fərqinə varmağa başlamışdı. özünü əvvəl olduğundan daha gənc və enerjili hiss edirdi.

Eyni zamanda müdiri də ondakı fərqi, dəyişikliyi müşahidə

edirdi. Çarli artıq müdirindən çoxlu təriflər və təşəkkürlər eşidirdi...

Mən bu kitabın gücünə inanıram və bütün insanlara bu kitabı oxuyub ondan nəticə çıxarmağı, həyatında yeniliklər etməyi məsləhət görürəm.

Yalnız bir mövqedə dayanıb fəaliyyət göstərməyi deyil, eyni zamanda böyük bir rəqabət mühitində öz fərqliliyini və

ciddiliyini, nüfuzunu qoruyub-saxlayan bütün şirkətlər kimi *Blanchard* təhsil və inkişaf şirkəti də daim dəyişir və inkişaf edir.

Kimlərsə mütəmadi olaraq “pendirimizi oğurlayır”. Heç bir şey əvvəlki kimi qalmır, daim dəyişir və yenilənir. Belə olan halda bizim də ağıllı insanlara ehtiyacımız olur.

Bu hekayəni insanlara danışdıqca öz daxilimdə olan əvvəlki mənfi hisslərin və düşüncələrin də yoxa çıxdığını müşahidə edirdim.

Hekayəni dinləyən insanlar sonradan mənimlə görüşüb təşəkkürlərini bildirir, Mırınətdarlıq ifadə edirdilər. Çalışdıqları şirkətdə baş verən dəyişikliyə fərqli prizmadan baxmağın onlara nə qədər faydalı olduğunu söyləyirdilər.

Oxunması az bir vaxt alan bu kiçik hekayənin sizin həyatınıza edəcəyi təsirin nə qədər böyük olduğunu təsəvvür edə bilməzsiniz.

Kitabı oxuduqca onun üç hissədən ibarət olduğunu görəcəksiniz. İlk hissə keçmiş sinif yoldaşlarının görüşündən və

həyatlarında baş vermiş dəyişiklikləri müzakirə etmələrindən bəhs edir. İkinci hissədə isə kitabın əsas hissəsi, mahiyyəti yer alır. Burada siçanların dəyişikliyə və yeniliyə daha rahat uyğunlaşdığını, hadisələrə daha sadə yanaşdığını görürük.

Digər iki insanda isə vəziyyət tamamilə fərqlidir. Onların beyni, hissiyyatı və duyğusu yaranmış vəziyyəti dərk etməyi, dəyişikliyə uyğunlaşmağı həddindən artıq çətinləşdirir. Bu o demək deyil ki, siçanlar insanlardan daha ağıllıdır. Əksinə hər birimiz siçanlardan daha ağıllı olduğumuzun fərqindəyik.

Lakin bu kiçik dörd canlının etdiklərini müşahidə edərək onların hər birinin ayrı-ayrılıqda bizim fərqli yönlərimizi, davranışımızı, düşüncələrimizi təmsil etdiyini görürük. Siçanlar sadə, insanlar isə mürəkkəb və qarışıq tərəflərimizi əks etdirirlər. Bir insan kimi mürəkkəb və qarışıq bir təbiətə, yüksək zəkaya və düşüncəyə sahib olmağımıza baxmayaraq çətinlik,

dəyişiklik və yeniliklərlə qarşılaşdığımızda sadə düşünməyin və

sadə işlər görməyin daha çox xeyrimizə olduğunu bilməliyik.

Üçüncü hissədə isə hekayəni dinləyən sinif yoldaşları onu müzakirə edir, hekayənin onlar üçün nə ifadə etdiyini və

çıxardıqları nəticəni öz aralarında paylaşırlar.

Daha əvvəl bu kitabın ilk nəşrini oxuyan bəzi insanlar üçüncü hissəni oxumadan bu hekayəni özləri şərh etməyə

çalışırdılar. Bəzi insanlar isə onlar üçün çox yararlı olacağını, özlərində yeni bir baxış formalaşdıracağını düşünərək bu kitabın üçüncü hissəsini də oxuyurlar.

Ümid edirəm ki, siz də bu hekayədə yeni və sizə yararlı ola biləcək maraqlı şeylər oxuyacaqsınız. Bu kitabın dəyişikliyi qəbul etməyinizə, yeniliyə uyğunlaşmağınıza və həyatınızda uğur qazanmağınıza səbəb olmasını arzu edirəm.

**Ken Blanchard**

*San Diego, 1998*

# PENDİRİMİ KİM OĞURLADI?



***[Telegram kitabbul](#)***

# Çikaqoda görüş

Günəşli bir bahar günü köhnə sinif yoldaşları nahar süfrəsi ətrafında görüşdülər. Bundan bir gün əvvəl isə məktəblərində

məzun gününə getmişdilər və qərara almışdılar ki, bu gün nahar yeməyində görüşüb ailələrində, işlərində, bir sözlə, həyatlarında baş vermiş dəyişikliklər barəsində söhbət etsinlər.

Öncə bir-biri ilə görüşüb oturdular, məktəb illərini yada salıb bir az zarafatlaşıb gülüşdülər. Ardınca gözəl bir nahar edib söhbətə başladılar.

Söhbətə sinfin məşhur şagirdlərindən biri olmuş Angela başladı:

- Dostlar, həyat bizim məktəb illərində düşündüyümüzdən çox fərqli imiş. İndi yaşadığımız həyat tamamilə başqadır. Çox şey dəyişib artıq.

Neytn Angelanın dediklərini təsdiqlədi:

- Tamamilə haqlısan. Bizim də buna heç bir şübhəmiz yoxdur artıq. Həyatımız çox dəyişib.

Dostlar Neytnın uzun zamandır fəaliyyət göstərən, kifayət qədər tanınmış bir şirkətdə işlədiyini bilirdilər. Ona görə də

onun dediklərindən çox təəccübləndilər.

- Dostlar, siz heç fikir vermisinizmi, həyatda çox şeylər dəyişib, lakin biz heç dəyişməmişik, - deyə Neytn sözünə

davam etdi.

Bu arada Karlos da söhbətə qoşuldu:

- Mənim fikrimcə biz yenilikdən qorxuruq deyə dəyişməyə

cəsarət edə bilmirik.

- Karlos, sən axı futbol komandasının kapitanı idin və heç bir şeydən qorxmazdın. Bir gün sənin nədənsə qorxduğunu eşidəcəyimi heç ağlıma gətirməzdim, - Cessika dedi.

Dostlar aralannda evdar xanımdan tutmuş şirkət rəhbərinə kimi fərqli mövqelərdə olan insanların olduğuna baxmayaraq, eyni hisslər keçirdiklərini görüb bir xeyli güldülər.

Bir sözlə, dostların hamısı son illər həyatında meydana çıxan gözlənilməz problemlərin həlli ilə məşğul idi və bu problemləri həll edib qurtara bilmədiyini və cəhdlərində

uğursuz olduğunu söyləyirdi.

Bayaqdan sakit oturub dostlarının söhbətini dinləyən Maykl dərindən nəfəs alıb sözə başladı:

Əvvəllər yenilikdən və dəyişməkdən çox qorxurdum. Bir gün şirkətimizdə bir dəyişiklik baş verdi. Artıq işlərimizi yeni bir formada, yeni bir strategiya ilə həyata keçirməli idik. İlk zamanlar nə edəcəyimizi bilmirdik. Çünki, buna hazır deyildik.

Yeniliyi qəbul edə bilmir, işlərimizi köhnə qayda ilə davam edirdik. Şirkətin qoyduğu yeni qaydalarla işləyə bilmədiyimizə

görə artıq işimizi itirmək təhlükəsi ilə qarşılaşmışdıq. Lakin günlərin birində eşitdiyimiz kiçik bir hekayə hər şeyi tamamilə

dəyişdirdi.

- Necə? - deyə Neytn soruşdu.

Maykl davam etdi:

- Hekayə mənim yeniliyə qarşı olan bütün mühafizəkar fikirlərimi dəyişdirdi. Ondan sonra həm işimdə, həm də ailə

həyatımda hər şey öz qaydasına düşməyə başladı. Hekayəni şirkətimizdə bərabər işlədiyim və mənimlə eyni düşüncədə

olan digər insanlara da danışdım. Bu kiçik hekayə hər kəsə müsbət təsir etdi və demək olar ki, köhnə fikirlərini tamamilə dəyişdirdi. Artıq yeniliyi qəbul etmiş və dəyişikliyə uyğunlaşmışdıq. İşlərimizi əvvəlkindən də səmərəli və keyfiyyətli şəkildə həyata keçirirdik. İnsanlar şəxsi həyatında da bunun effektli olduğunu söyləyirdilər.

- Necə bir hekayədir ki, bu? - deyə Angela sual verdi.

- "Pendirimi kim oğurladı?" adlanır hekayə, - cavab verdi Maykl.

Dostlar kitabın adını eşidib gülüşdülər. Karlos soruşdu:

- Bizə də danışarsanmı? Mən artıq bu hekayəni indidən sevdim.

- Əlbəttə, böyük məmnuniyyətlə. Onsuz da kiçik hekayədir, - deyə cavab verdi Maykl və hekayəni danışmağa başladı.

***Telegram kitabbul***

# Hekayə

Bir zaman uzaqlarda böyük bir labirintdə sadəcə

qarınlarını doyurmaq və xoşbəxt olmaq üçün pendir axtaran dörd kiçik canlı yaşayırmış. Bunlardan ikisi , siçan, ikisi də kiçik insanlar imiş.

Siçanların adı Koşarca və Koklarca idi. Eynilə bu günün insanlanna bənzəyən və onlar kimi davranan, sadəcə siçanlar kimi balaca olan kiçik insanlann adı isə Mırın və Kırın idi.

Bu canlılar çox kiçik olduqlan üçün onların nə etdiklərini və necə yaşadıqlarını görmək çətin imiş. Lakin diqqətlə və

yaxından baxdıqda onların nə etdiklərini görən hər kəs təəccüblənərmiş.

İnsanlar və siçanlar bütün günlərini labirintdə öz pendirlərini axtarmaqla keçirirmiş.

Sadə quruluşlu beyinə, lakin güclü instinktə malik olan bu siçanlar da digər siçanlar kimi iri, bərk və üzərində xırda deşikləri olan çox sevdikləri pendirlərini axtarırmış.

Həddindən çox mürəkkəb quruluşlu, güclü bu- inancla dolu beyinə sahib olan kiçik insanlar – Mırın və Kırın isə öz fərqli pendirlərini axtarırmış. Bu pendirin onları xoşbəxt edəcəyinə ürəkdən inanırmışlar.

Bu kiçik insanlar və siçanlar bir-birindən çox fərq-lənirmişlər. Lakin, onların bu labirintdə tək bir ortaq nöqtələri varmış. Hər sabah idman paltarlarını və qaçış ayaqqabılarını geyinər, evdən çıxar və labirintdə pendir axtarmağa gedərmişlər.

Labirint uzun koridorlardan və otaqlardan ibarət imiş.

Otaqların bəzilərində çox gözəl və ətirli pendirlər varmış. Bəzi otaqlar isə tamamilə boş və qaranlıq imiş. Labirintdə eyni zamanda qapalı və heç yerə

açılmayan qaranlıq otaqlar da varmış ki, bu da labirinti çox qorxulu və təhlükəli edirmiş.

Lakin labirint eyni zamanda öz yolunu tapanlar üçün xoşbəxt yaşamağa səbəb olacaq sirlərlə doluymuş.

Koşarca və Koklarca adlı kiçik siçanlar labirintdə pendir tapmaq üçün sadə bir üsuldan istifadə edirmişlər. Bir koridora girib əvvəldən axıra kimi gedir, bütün otaqlara baxır, pendir tapmayanda geri qayıdıb digər koridorlara keçirmişlər.

Koklarca iri burnunun köməyilə pendirin qoxusunu alıb istiqaməti təyin edir, Koşarca isə oraya doğru qaçmağa başlayırmış. Bəzən labirintdə itir, səhv koridorlara girir, daşa-kəsəyə rast gəlirmişlər. Lakin dayanmır, yolu yenidən tapıb pendirlərini axtarmağa davam edirmişlər.

Siçanlar kimi Mırın və Kırın da düşünə bilmək bacanğından və keçmiş təcrübələrindən istifadə edərək öz pendirlərini axtarırmış. Lakin onlar pendir axtarmaq üçün daha dərindən düşünür, qarışıq beyinlərindən istifadə edirmişlər.

Bəzən uğurlu olurmuş. Bəzən isə güclü insani duyğuları və

düşüncələri, keçmiş təcrübələri, bir sözlə, stereotipləri onların labirintdəki həyatını çətinləşdirirmiş.

Nəhayət hər biri öz üsulu ilə axtardığı pendirinə

qovuşurmuş. Bir gün koridorun sonunda “P” adlı böyük bir pendir stansiyasında çoxlu pendir tapırlar. Burada onların istədikləri hər növdə pendir varmış.

Bundan sonra kiçik siçanlar və insanlar hər sabah oyanıb, idman paltarını və qaçış ayaqqabılarını geyinib “P” stansiyasına getməyə başlamışlar. Bir müddət keçdikdən sonra onlar bunu adət halına salmışlar.

Koşarca və Koklarca hər gün oyanıb labirintə çıxır və

qaçaraq “P” stansiyasına gəlirmişlər. Buraya çatdıqda qaçış

ayaqqabılarını

çıxararaq

iplərini

bir-birinə

bağlayıb

boğazlanndan asırmışlar ki, yenidən lazım olduğunda rahat tapa bilsinlər. Sonra isə doyunca istədikləri dadlı pendirlərdən yeyirmişlər.

İlk zamanlar Mırın və Kırın da hər sabah yuxudan erkən oyanıb “P” pendir stansiyasına gəlir, istədikləri qədər dadlı pendirlərdən yeyirmişlər. Lakin bir qədər keçdikdən sonra onlar adəti unutmuşlar. Artıq səhərlər yuxudan gec qalxır, daha yavaş və arxayın bir şəkildə “P” stansiyasma gedirmişlər. Pendir anbarının yerini tanıdıqlarını və orda çoxlu pendirin olduğunu bildikləri üçün tələsmir, daha rahat və qayğısız hərəkət edirmişlər.

Onlara pendirin haradan gətirildiyi və kim tərəfindən oraya yığıldığı qətiyyən maraqlı deyilmiş. Sadəcə “P”

stansiyasını tanıyır və orda pendir olduğunu görürmüşlər.

Oraya çatar-çatmaz özlərini evlərindəki kimi hiss edir, idman paltarlarını və qaçış ayaqqabılarını soyunub adi paltar və ayaqqabılar geyinilmişlər. Bir sözlə, pendiri tapdıqları üçün özlərini çox rahat və xoşbəxt hiss edirmişlər.

Mırın “Nə gözəl! Burada bizə ömrümüzün sonuna kimi bəs edəcək qədər pendir var!” deyə sevinirmiş. Bu kiçik insanlar özlərini xoşbəxt və uğurlu hiss edir, güvənli və

təhlükəsiz bir yerdə olduqlarını düşünürmüşlər.

Bir qədər də keçdikdən sonra onlar “P” stansiyasında tapdıqları pendiri öz şəxsi pendirləri hesab etməyə başlamışlar.

Stansiya o qədər böyük imiş ki, Mırınla Kırın tezliklə öz evlərini də pendirlərin yaxınlığına köçürmüşlər və özləri üçün hər zaman xəyal etdikləri gözəl bir həyat qurmuşlar.

Onlar özlərini evlərindəki kimi hiss etmələri üçün “P”

stansiyasının divarlarına pendirlə əlaqədar olan müxtəlif cümlələr da yazmışlar. Onlar bu cümlələri oxuduqca özlərini daha xoşbəxt hiss edir və gülümsəyirmişlər.

Cümlələrin birində belə yazılırdı:



Zaman keçdikcə Mırın və Kırın öz dostlannı da evlərinə

dəvət edir, pendirləri onlara göstərib şəstlə “Görürsüz nə gözəl və dadlı pendirlərdir” deyib lovğalanırmışlar. Bəzən dostlarını da dadlı pendirlərə qonaq edirmişlər.

Mırının beynində “bu pendirlər bizim haqqımızdır, çünki onu biz axtarıb tapmışıq” deyə bir fikir yaranmışdı. Bütün gününü bu fikirlə keçirirmiş. Səhərdən axşama kimi pendirlərin arasında dolaşaraq doyunca pendir yeyirmiş. Axşam düşüncə

isə evə dönür, rahat bir şəkildə çarpayısına uzanaraq dərin bir yuxuya gedirmiş.

Bu kiçik insanlar hər gün eyni qaydada Pendir stansiyasına gedir, yeyə bildikləri qədər pendir yeyir, evə dönərkən isə özləri ilə bacardıqlan qədər pendir gətirirmişlər. Sabah yenidən eyni işi təkrar edirmişlər.

Bir müddət bu cür davam etdikdən sonra onların rahatlığı artıq lovğalığa və təkəbbürə çevrilir. O qədər rahat və arxayın olurlar ki, anbarda baş verənlərdən xəbərləri belə olmur.

Kiçik siçanlar olan Koşarca və Koklarca da həyatlarını başqa cür davam edirmişlər. Hər səhər “P” stansiyasına gedir, ətrafı gəzir, iyləyir, bir sözlə yeni pendir axtarırmışlar. Bu gün dünənkinə nisbətən bir fərqlilik varmı deyə, ətrafı müşahidə

edirmişlər. Sonra isə oturub dincəlir, dadlı pendirlərdən doyunca yeyirmişlər.

Hər şey öz yolunda davam edirmiş. Günlərin bir günü hər şey birdən-birə dəyişir. Hər zamankı kimi səhər durub “P”

stansiyasına gələndə pendirlərdən əsər-əlamət qalmadığını görürlər.

Pendirlərin yoxa çıxdığını gördükdə heç təəccüb-lənməmişlər. Çünki son zamanlar pendirin günbəgün azaldığını müşahidə edir və bir gün bitəcəyini gözləyirmişlər. Özlərini bu vəziyyətə hazırlamışlar və pendir qurtardıqda nə edəcəklərini bilirmişlər.

Pendirin qurtardığını görən Koşarca və Koklarca bir-birinə

baxmış, sonra boyundan asdıqları qaçış ayaqqabılarını geyinmişlər.

Siçanlar hər şeyi dərindən araşdırıb təhlil etməz, qarışıq və mürəkkəb fikirlərlə özlərinə məhdudiyyət qoymazmış.

Onlara görə problemin həlli çox sadəymiş. Əgər "P"

stansiyasmda vəziyyət dəyişmişsə, deməк, onların da dəyişməsi vacibdir.

Koşarca və Koklarca pendir axtarmağa hazır bir şəkildə

diqqətlə labirintə nəzər salmışlar. Sonra Koklarca burnunun köməyilə ətrafı qoxlamış və başı ilə Koşarcaya pendirin qoxusu gələn tərəfi göstərmişdi. İşarəni görən Koşarca öndə, Koklarca isə onun arxasınca labirintə doğru qaçmağa başlamışlar. Zaman itirmədən yeni pendirin axtarışına çıxmışlar.

Həmin gün Mırın və Kırın da "P" stansiyasına gəlmişlər.

Onlar pendirin hər gün azaldığının fərqinə varmadıqları üçün buranı əvvəlki kimi pendirlə dolu görəcəklərini düşünürmüşlər.

Buranı boş görməyə hazır deyilmişlər. Lakin pendirin yerində

olmadığını gördükdə heyrətdən yerlərində donub qalmışlar.

Mırın isə var gücü ilə qışqırmışdır:

- Bu-nədir? Burada pendir yoxdur! Pendirim hardadır?

Mənim pendirimi kim oğurladı?

Sonra həddindən artıq əsəbi bir şəkildə əllərini belinə

qoyub "bu haqsızlıqdır" deyərək ortalıqda var- gəl etməyə

başlamışdır.

Kırın isə təəccübdən yerində donub qalmışdır. O da Mırın kimi hər zaman burada pendir olacağına və heç vaxt bitməyəcəyinə inanırmış. Pendirin bitdiyini gördükdə isə

məyus olmuş və ümidsizliyə qapanmışdır. Çünki, bu duruma qətiyyən hazırlıqlı deyilmiş.

Mırın dayanmadan əsəbi şəkildə deyinir, şikayət edirmiş.

Kırın isə onun dediklərini dinləmir, bu hadisənin baş verdiyini qəbul etmək istəmirmiş.

Kiçik insanların bu cür davranışı heç bir işə yaramır, problemin həllində heç bir rol oynamır. Lakin onların reaksiyası başa düşüləndir. Çünki pendiri tapmaq heç də asan deyil və bu onlara böyük əziyyət hesabına başa gəlmişdi. Buna görə də

pendir onlar üçün sadəcə bir qida vasitəsi deyil, daha dəyərli bir tapıntı imiş.

Onlar üçün pendir tapmaq eyni zamanda özlərini xoşbəxt hiss etmələri üçün ehtiyac duyduqları şeyləri əldə etməyin bir yolu imiş. Pendir onlara öz zövqlərincə daha qiymətli şeyləri ifadə edirmiş.

Bəziləri üçün "Pendirə sahib olmaq" sadəcə bir maddiyyata sahib olmaq imiş. Bəziləri üçün isə sağlamlıq, xoşbəxtlik və mənəvi rahatlıq imiş.

Kırın üçün Pendir özünü güvəndə və təhlükəsiz bir yerdə

hiss etmək, xoşbəxt bir ailəyə və *Cheddar* prospektində gözəl bir villaya sahib olmaq imiş.

Mırın üçün isə Pendir başqalarını idarə etmək, onların üzərində hökmran olmaq və *Camembert* təpələrində böyük bir malikanəyə sahib olmaq demək imiş.

Pendirin həyat və gələcəyi üçün vacib bir vasitə olduğunu hesab edən bu kiçik insanlar uzun müddət düşünmüşlər.

Əllərindən gələn tək şey “P” stansiyasını yaxşı-yaxşı gəzib pendiri axtarmaq və onun itib- itmədiyini dəqiqləşdirmək olmuşdur.

İki kiçik siçan - Koşarca və Koklarca labirintdə yeni pendir axtararkən Mırın və Kırın başlanna gələn bu hadisəyə əsəbləşib bütün gün deyinmişlər. Onlar hər şeyə etiraz edir, düşdükləri vəziyyətdən şikayət edirmişlər. Bir neçə saat keçdikdən sonra Kırın artıq sıxılmağa, darıxmağa başlamışdır. Pendiri tapmasa-lar nə edəcəklərini düşünmüşlər. Axı onlar gələcəklə bağlı bütün xəyallarını və planlarını pendirə görə təyin etmişdilər.

Lakin yenə də düşdükləri durumu əsla qəbul etmir, “Axı bu necə ola bilər? Niyə bizə heç bir xəbər vermədən pendirimizi götürüblər?” deyə fikir edirmişlər.

Nəhayət, axşam düşmüş, onlar ac və ümidsiz bir halda evə

dönmüşlər. Lakin “P” pendir stansiyasından çıxmazdan əvvəl Kirin divara bu cümləni yazmışdır:




Növbəti gün səhər tezdən Mırın və Kırın yenə “P”

stansiyasına getmişlər. Hələ də pendiri tapacaqlarına ümid edirmişlər. Lakin oraya çatdıqlarında yenidən dünənki mənzərə

ilə qarşılaşmışlar. Yenə də çarəsiz şəkildə nə edəcəklərini bilmədən səssizcə yerlərində dayanmışlar.

Kırın qəzəbindən əlləri ilə qulaqlarını tutmuş və gözlərini bağlamışdır. Hər şeyi unutmaq istəyirmiş. Pendirin bir gündə

deyil, tədricən, günbəgün azaldığı həqiqətini qəbul etmək istəmirmiş.

Mırın da ümidsiz bir halda ətrafina nəzər salmış, güclü bir inanca, stereotiplərə sahib olan mürəkkəb beyni ilə baş vermiş

hadisəni düşünmüşdür. Dodağının altında “burada nə baş

verdi, bu haqsızlığı kim etdi bizə?” deyə pıçıldamışdır.

Üzüntüdən əlləri ilə gözlərini qapayan Kırın bir müddət bu cür dayandıqdan sonra Koşarca və Koklarcanı xatırlayıb gözlərini açmış, ətrafa nəzər salıb onlan axtarmışdır. Nə qədər axtarsa da kiçik siçanlan görə bilməmiş və Mırından soruşmuşdur:

- Bu siçanlar haradadır? Yoxsa bizim bilmədiyimiz başqa nəsə bilirlər?

- Nə biləcəklər ki? Onlar sadəcə kiçik siçanlardır. Yalnız pendirin yoxa çıxdığını görə bilərlər onlar. Biz isə insanıq. Özəl yaranmışıq və bizim çox güclü beynimiz var. Biz daha üstünük.

Hər şeyin ən yaxşısına layiqik, - deyə Mırın cavab vermişdir.

- Bəli dostum, razıyam. Biz daha ağıllıyıq. - Kırın demiş və

sözünə davam etmişdir - Lakin hal-hazırda mənə elə gəlir ki, biz

heç də ağıllı hərəkət etmirik. Burda bəzi şeylər dəyişir. Bəlkə biz də dəyişməli, fərqli şeylər düşünməli, fərqli işlər görməliyik?

- Niyə dəyişməliyik? Biz bunlara layiq deyilik axı. Bu hadisə

bizim başımıza gəlməli deyildi. Hər şey dəyişsə belə bu bizim xeyrimizə olmalıdır və biz öz pendirimizi qazanmalıyıq, -

demişdir Mırın.

- Niyə bu cür düşünürsən? - Kırın soruşmuşdur.

- Bu bizim haqqımızdır.

- Niyə?

- Çünki bu problemi biz yaratmamışıq. Bunu başqalan etmişdir. Pendirimizi oğurlamışdır.

Kırın dostunun dediklərini dinləmiş və bir az düşünmüşdür. Mırının dedikləri ilə razı deyilmiş. Ağlında başqa fikir varmış. Bunu dostu ilə də paylaşmışdır:

- Bəlkə artıq bu vəziyyətdən çıxıb, yeni pendir axtaraq?

Burda oturub gözləməklə heç nə əldə edə bilmərik. Pendirlər artıq geri qayıdan deyil.

- Yox! Qətiyyən! Mən bu məsələni sonuna kimi araşdıracağam. Pendirimizi - kimin oğurladığını tapacağam, -

deyə Mırın qəti şəkildə etiraz etmişdir.

Mırın və Kırın nə edəcəkləri ilə bağlı mübahisə edərkən Koşarca və Koklarca yollarına davam edirmişlər. Labirintdə

gəzərək bütün koridorlan gözdən keçirir, tapdıqlan stansiyalarda pendir axtarırmışlar. Beyinlərində yeni pendir tapmaqdan başqa heç bir şey yox imiş.

Onlar bir xeyli axtarışdan sonra əvvəllər heç qarşılarına çıxmayan “Y” stansiyasına rast gəlmişlər. İçəri girdikdə isə

sevincdən gözləri parıldamışdır. Uzun zamandır axtardıqlan pendiri nəhayət ki, tapmışlar. Burada onların bu günə kimi görmədikləri qədər çoxlu pendir varmış.

Kiçik siçanlar tapdıqlan pendirə görə sevindikləri zaman Mırın və Kırın hələ də mürəkkəb beyinləri ilə nə baş verdiyini anlamağa çalışırmışlar. Pendirləri olmadığı üçün özlərini bədbəxt hesab edir, düşdükləri çətin vəziyyətə görə qəzəblənib bir-birini günahlandırırmışlar.

Kırın bir anlıq yenə siçanlan xatırlamış, onların pendir tapıb-tapmadığını düşünmüşdür. Lakin onların heç bir məlumat, ipucu olmadan labirintdə pendir axtararkən çoxlu çətinliyə rast gələcəyini də bilirmiş. Fikirləşirmiş ki, bu axtarış

uzun sürməz və heç bir nəticə verməz.

Bəzən isə əksinə, onların yeni pendir tapdıqlarını və

xoşbəxt olduqlarını düşünürmüş. Bundan ruhlanıb özünü də

labirintdə pendir axtararkən təsəvvür etmiş və bunu düşünməyin belə ona nə qədər müsbət təsir etdiyinin fərqinə

varmışdır. Hətta bəzən burnuna yeni pendirlərin qoxusu da gəlirmiş.

Getdikcə bu düşüncələr beynini daha çox məşğul etmiş və

gözlərinin önündə canlanan yeni Pendirlər onu “P”

stansiyasından çıxıb labirintdə axtanşa sövq etmişdir. O, fikrini dostuna bir daha söyləmişdir. Mırın isə əvvəlki düşüncədəymiş:

- Yox! Mən buranı çox sevirəm. Bura çox rahat və

təhlükəsizdir. Gedəcəyimiz yerlər təhlükəli ola bilər.

- Xeyr. Elə deyil, - deyə Kırın etiraz etmişdi, -

Xatırlayırsanmı, biz daha əvvəllər də labirintin bir çox yerlərini gəzib pendir axtarmışıq. Yenidən bunu edə bilərik.

- Yox, dostum. Artıq yaşlaşmışıq. Əvvəlki qədər güclü deyilik. Həm də tanımadığımız yerlərdə yolu azıb pis duruma düşmək istəmirəm daha. Sən elə

olmasını istəyirsənmi? - deyə

Mırın dostundan soruşmuşdur.

Mırının sözləri onda böyük ruh düşkünlüyü yaratmışdır.

Bu sözlərdən sonra bir daha Pendir tapa bilməyəcəyi və

uğursuz olacağı kimi bədbin düşüncələr Kırında yenidən baş

qaldırmış və bu düşüncələr dəhşətli bir qorxu hissinə

çevrilmişdir. Bu qorxu onun Pendir barədə bütün ümidlərini məhv etmişdir.

Sonra evdən çıxıb "P" stansiyasına getmişlər və yenə də

oranı boş görüb məyus olmuşlar. Beləcə hər gün pendirin geri gəlməyini gözləyir, qorxu və narahatçılıq hissləri ilə yaşamağa davam edirmişlər.

Bütün bu olanlara baxmayaraq yenə də inadkarlıqla baş

verənləri qəbul etmirmişlər. Gecələr rahat yata bilmir, səhərə

kimi beyinlərini qarışdıran suallara cavab tapmağa çalışırmışlar.

Hər gün enerjiləri bir az da azalır, gərginlik və narahatçılıqlan artırmış.

Artıq çox sevdikləri ev belə onlara rahatlıq vermirmiş.

Gecələr yuxularında bir daha pendir tapa bilməyəcəklərini görüb qorxu ilə yerlərindən dik atılırmışlar. Sonra bunun yuxu olduğunu görüb bir az rahatlanır, səhər durub yenidən "P"

stansiyasına gedib pendirlərini gözləyirmişlər.

Bir gün Mırın dostuna demişdir:

- Bilirəm ki, daha diqqətli olsaq pendirin buralarda bir yerdə olduğunu görərik. Hər şey birdən-birə bu qədər dəyişə

bilməz. Məncə, pendir çox yaxındadır. Bəlkə də bu divarların arxasındadır.

Növbəti gün əllərində qazıntı işləri görmək üçün lazım olan müxtəlif alətlərlə “P” stansiyasına gəlmişlər və divarı dağıtmaq üçün dayanmadan işləməyə başlamışlar. Xeyli işlədikdən sonra divarda kiçik bir dəlik açmışlar. Böyük ümidlə

içəri baxmış, lakin orada pendir görə bilməmişlər.

Yenidən məyus olsalar da pendiri tapacaqlarına inanıb səhər işə daha erkəndən başlamışlar. Daha çox işləmiş, divarları dəlib pendir axtarmış, lakin heç bir nəticə əldə edə

bilməmişlər.

Dostlar artıq bir neçə gün gərgin işlədikləri üçün yo-rulmuşlar. Mırın yenidən üzünü dostuna tutub demişdir:

- Bəlkə də biz heç bir iş görmədən oturub gözləməyə

davam etməliyik. Onsuz da gec-tez pendirimizi geri qaytaracaqlar.

Kırın da dostuna inanmış və birlikdə hər gün gəlib oturub böyük ümidlə pendir gözləyirmişlər. Lakin pendirdən səs-səmir yox imiş.

Artıq evlərində tədarük etdikləri pendir də tükənməyə

başlamışdı. Aclıq və stress onlan əldən salmışdı. Artıq Kırın gözləməkdən bezmiş və anlamışdı ki, “P” stansiyasında nə

qədər çox qalsalar vəziyyətləri daha da pis olacaq.

Nəhayət, bir gün Kırın sanki dərin bir yuxudan ayılmış və

gülərək öz-özünə *"Kırın, hər gün eyni şeyləri təkrarlayır, sonra da niyə heç bir şey düzəlmir deyə düşünürsən. Eyni şeylərin təkrarlanması nəyi düzəldə bilər ki?* ” demişdir.

Bir tərəfdən də o, labirintə qayıtmaqdan, orada yolu itirib azacağından və axtardığı pendiri tapmayacağından qorxurmuş.

Eyni zamanda bu qorxu hissinin həyatını alt-üst edəcəyini də

gözəl anlayırmış. Bir xeyli düşündükdən sonra ağlı hisslərinə

qalib gəlmiş və labirintə pendir axtarmağa gedəcəyinə qərar vermişdir.

Kırın idman paltarlannı və qaçış ayaqqabılarını axtarmağa başlamışdır. “P” stansiyasını taparkən arxayınlaşıb bir daha onlara ehtiyac olmayacağını düşünərək paltarı və ayaqqabıları atdıqları üçün uzun müddət axtarmışdır. Nəhayət, onları tapmış və geyinməyə hazırlaşanda Mırın soruşmuşdur:

- Niyə bunlan geyinirsən? Yoxsa labirintə gedirsən? Niyə

mənimlə birgə oturub pendirin geri gətirilməsini gözləmirsən?

- Çünki, pendir daha heç bir zaman geri qayıtmayacaq.

Mən də indiyə qədər sənin kimi düşünür və pendiri gözləyirdim. Sonunda anladım ki, pendiri əsla və əsla geri qaytarmayacaqlar. O pendir dünənin idi. İndi isə bizə bu günün pendiri lazımdır, - deyə Kırın dostunun dediklərinə cavab vermişdir.

Mırın isə yenə də inadla etiraz etmiş və demişdi:

- Əgər labirintdə başqa pendir yoxdursa?! Olsa belə bəlkə

də sən tapa bilmədin?! Bəlkə də yolu itirib qaranlıq koridorlarda azdın?!

- Bilmirəm - deyə Kırın cavab vermişdir. Lakin dostunun sualları da eyni zamanda beynini narahat etməyə başlamışdı.

Bu günə kimi labirintə getməyə qoymayan dəhşətli qorxu hissi yenidən onu bürümüşdü.

Bunu görən Kırın tez özünü toplamış, yeni pendirləri görəcəyini və xoşbəxt olacağını gözünün önünə gətirib yenidən cəsarətlənmiş və Mırına demişdir:

- Dostum, həyatımızda bəzi şeylər tamamilə dəyişər və bir daha əvvəlki kimi olmaz. Bizim düşdüyümüz vəziyyət də buna bənzəyir. Biz dayanmışıq, lakin həyat davam edir və biz də

davam etməliyik.

Mırın yenə dostunu dinləməmiş və onu fikrindən daşındırmağa çalışmışdır. Kırın isə artıq qərarını vermişdi.

Dostunun qəlbinə dəyməmək üçün özünü güclə saxlasa da, bu günə kimi qorxudan hansı vəziyyətə gəldiyini düşünüb gülməyini saxlaya bilməmişdir.

Sonra "P" stansiyasından çıxmaq üçün hazırlaşmağa başlamışdı. Özünü əvvəlkindən daha da güclü və enerjili hiss edir, uğur qazanacağına ürəkdən inanırmış. Bir daha dönüb dostuna baxmış və "Labirintə" deyə səslənmişdi. Mırın isə heç bir reaksiya verməmiş və sakitcə onu seyr etmişdi.

Kırın əyilib yerdən ucu iti daş parçası götürmüş və Mırının rahat oxuması üçün iri hərflərlə divarda beynindən keçən bir ciddi fikri yazmışdı. Sonra isə cümlələrin ətrafında bir pendir şəkli çəkmişdi. O, Mırının bu sözlərdən sonra yumşalacağına və

onunla birlikdə labirintə pendir axtarmağa gedəcəyinə ümid edirmiş. Lakin bu cümlələr də Mırına təsir etməmişdi.




Divarda isə bunlar yazılmışdır:

Sonra Kırın labirintə doğru baxmış və uzun zaman necə

pendirsiz qalmağı bacara bildiklərini düşünmüşdü. Bu günə

qədər labirintdə başqa pendirin olmadığına və yeni pendir tapa bilməyəcəyinə inanmışdı. Bu qorxulu fikirlər onu ruhdan salmış, hərəkətsiz vəziyyətə gətirmiş, bir sözlə, onu yaşayan ölüyə çevirmişdi.

Kırın gülümsəyib Mırının həmişə verdiyi sualı xatırlamışdı.

“Pendirimi kim oğurladı?” Kırının sualı isə fərqliymiş: “Niyə

vaxtında cəld tərpənib yeni pendir tapmadım?”

O, labirintə doğru yola çıxarkən dönüb arxaya baxmış və

indiyə kimi olduqlan yerin nə qədər rahat və sakit olduğunu düşünmüşdü. Düzdür, artıq orada pendir olmasa belə bu yerlər ona çox doğma imiş.

Bunlan düşündükcə labirintə getməklə bağlı yenə

tərəddüdləri yaranmışdı. Bir müddət beynində qanşıq fikirlər cərəyan etmişdi. Sonra o yenidən divara bir cümlə yazmış və

sonra bu yazının qarşısında bir neçə dəqiqə dayanıb baxmışdı.




Kırın qorxunun bəzi zamanlarda yaxşı bir hiss olduğunu bilirmiş. Bəzi şeylər edib həyatını dəyişdirməyəcəyi təqdirdə

hər şeyin daha da pis olacağı qorxusu insanı sanki dərin bir yuxudan ayıldır və bir işlər görməyə sövq edir. Lakin bu işləri görməyəcək qədər qorxmaq heç də yaxşı hiss deyil.

Sonra Kırın sağ tərəfə, labirintin əvvəllər heç görmədiyi hissəsinə baxmış, qaranlıq və göz işlədikcə uzanan koridoru görüb vahimələnmişdi. Ardınca isə dərindən nəfəs alaraq labirintə girmiş və tanımadığı istiqamətdə irəliləməyə

başlamışdı.

Labirintdə irəlilədikcə "görəsən "P" stansiyasında çoxmu gözlədim" deyə düşünürmüş. Uzun zaman pendir olmadığı üçün ac qalan Kırın çox zəifləmiş və əldən düşmüşdü. Buna görə də labirintdə gəzdikcə çətinlik çəkirdi. Başına gələnlərdən nəticə çıxaran Kırın əlinə düşən hər fürsətdən istifadə

edəcəyinə, bütün yenilikləri qəbul edib uyğunlaşacağına qərar vermişdi. Bu qərarın hər şeyi asanlaşdıracağını və həll edəcəyini bilirmiş. Sonra isə gülümsəyərək dodağının altında pıçıldamışdır: "Gec olmağı heç zaman olmamağından daha yaxşıdır"1.

1 Heçdən kosa yaxşıdır. - *red.*

Bir neçə gün labirintdə gəzən Kırın bəzən kiçik pendir parçalan tapmışdı. Lakin onlar az sayda və kiçik olduqlan üçün tez qurtarırmış. Kırın böyük bir pendir parçası tapıb evə

aparmaq və dostunu labirintdə pendirin olduğuna inandırmaq istəyirmiş. Kırın bununla Mırının da labirintə gəlib onunla birlikdə pendir axtaracağına inanırmış. Bəzən isə inamı sarsılırmış. Labirintin çox qanşıq və mürəkkəb bir yer olduğunu bilirmiş. Eyni zamanda onların "P" stansiyasında olduqları müddətdə labirint də çox dəyişmişdir.

Kırın irəli getdiyini, yeni yol tapdığını düşündüyü anda labirintin koridorlannda yolu azırmış. Bir addım irəli, iki addım geri atırmış. Çətinlik çəksə də, bu hiss ona labirintdə pendir axtarmaqdan və onun verdiyi xoşbəxtlik hissindən vacib deyilmiş.

Zaman keçdikcə Kırın labirintdə yeni pendir axtarmağın və

tapmağın nə qədər real hiss olduğunu düşünməyə başlamışdı.

"Çoxmu

böyük

tikələr

istəmişəm,

yoxsa”

deyərək

düşünmüşdür. Sonra yenə öz- özünə gülüb, “yemək üçün bir tikə balaca pendirim varmı ki, böyüyü də olsun” demişdi.

Nə zaman cəsarətini itirib ruhdan düşməyə başlasa, həmin an icra etdiyi işin pendirsiz yaşamaqdan daha yaxşı olduğunu düşünüb özünü toplayır və axtarışına davam edirmiş.

Düşüncələrini daim kontrol edir, özünü mənfi fikirlərdən uzaq tutur və bir yerdə dayanıb başına gələcəkləri gözləmək məcburiyyətində olmadığını düşünürmüş.

Eyni zamanda siçanların da bu işi etdiyini gördükcə özünə

güvəni artır və bacaracağına inanırmış.




Sonra Kırın keçmişi, "P" stansiyasındakı günləri xatırlamış, pendirin onların düşündüyü kimi qəfil yoxa çıxmadığını anlamışdı. Pendir hissə-hissə azalmış, hətta tam qurtarmasa belə yerdə qalanlan köhnəlib boyatlamışdı. Dadı da artıq əvvəlki kimi deyilmiş.

Bütün bunlara rəğmən Kırın və Mırın istəsələr başlarına gələcək hadisələri əvvəlcədən görə bilərmiş. Lakin onlar bu gerçəkliyi görmək istəməmişdilər.

Nəhayət Kırın başa düşmüşdü ki, əgər vəziyyətə hər gün nəzarət etsə və dəyişikliyə hazır olsaymış pendirin bitməsi onlan bu qədər sarsıtmazmış. Bəlkə də Koklarca və Koşarca onlardan fərqli olaraq vəziyyətə nəzarət edirmişlər. Bunları düşünən Kırın bir anlıq dayanmış və divara bu sözləri yazmışdır

Kırın xeyli müddət axtardıqdan sonra labirintdə böyük bir pendir stansiyası tapmışdı. Sevincdən gözləri parlamış, içində

bir ümid qığılcımı yaranmışdı. Lakin içəri girdikdə buranın tamamilə boş olduğunu görmüş və məyus olmuşdu.

"Heç vaxt işlərim düz getmir, uğursuzluğa düçar oluram"

deyərək artıq istəyindən vaz keçməyi və geri dönməyi fikirləşmişdi.

Artıq fiziki gücü də qalmamışdı. Aclıq və yorğunluq onu tamamilə əldən salmışdı. O, geriyə, “P” stansiyasına qayıtmaq istəyirmiş. Ən azından Mırının orda olduğunu və yalnız qalmayacağını düşünürmüş. Bütün fikirləri bir-birinə qarışmış

və nə edəcəyinə qərar verə bilmirmiş.

Lakin bir az keçdikdən sonra özünü toplamış və əvvəl özünə verdiyi sualı bir daha vermişdir: *“Əgər qorxmasaydın nələr edərdin?"*

Əvvəllər qorxduğu şeyin nə olduğunu bilməsə də artıq yavaş-yavaş qorxularının nədən qaynaqlandığını görməyə

başlamışdı. Bu zəif və gücsüz zamanında qorxduğu tək şey tənha qalmaq imiş. Lakin Kırın bu qorxu hissinin indiyədək ona nə qədər mənfi təsir etdiyinin, irəli getməsinə əngəl olduğunun və onu ruhdan saldığının fərqində deyilmiş.

O, eyni zamanda Mırını xatırlamışdı. “Görəsən Mırın da labirintə çıxdımı? Yoxsa hələ də qorxduğu üçün bir hərəkət etmədən oturub gözləyir?!”



Sonra Kırın labirintdə gəzib pendir axtardığı zaman özünü daha yaxşı hiss etdiyini xatırlamışdı.

Həm özü üçün, həm də Mırına yol göstərmək məqsədilə

divara bu sözləri yazmışdı:

Kırın Önündə uzanan qaranlıq labirintə nəzər salmış və

ucu-bucağı

görünməyən

labirint

onu

yenidən

vahimələndirmişdi. Görəsən onu qaranlıq yollarda nələr gözləyir? Bəlkə oralarda heç pendir yoxdur? Bəlkə də əksinə, orda daha böyük pendir tikələri var? Bütün bu fikirlər onun beynində cərəyan etdikcə ağlına hər cür fikirlər gəlmişdi.

Başına bir iş gələcəyindən və ölməkdən çox qorxurmuş.

Kırın bir müddət bu cür mənfi düşüncələrin təsirində

qalsa da qəfildən sanki yuxudan ayılmış və öz-özünə gülmüşdü.

Keçirdiyi qorxu hissinin onun vəziyyətini daha da pisləşdirdiyini anlamışdı. O, cəsarətini toplamağa və qorxmadan işinə davam edəcəyinə qərar vermişdi. Yenidən labirintə üz tutmuş və yeni bir istiqamətdə irəliləməyə başlamışdı.

O, labirintin qaranlıq dəhlizlərində irəliləyərkən qorxunun onu nə vəziyyətə saldığını xatırlamış və elə ağılsız bir vəziyyətə

düşdüyü üçün öz-özünə gülmüşdü. İlk əvvəllər fərqində olmasa da artıq onun ruhunu qidalandıran bəzi şeylərin olduğunu düşünmüşdür. Hadisələri öz

axarına buraxmış və sonda onu gözləyən şeylərin nə olduğunu bilmədən inamla öz yolunda davam etmişdi.

Bir müddət sonra özünü əvvəlkindən daha rahat və

xoşbəxt hiss etməyə başlamışdı. Öz-özünə “Niyə bu qədər rahatam və özümü daha yaxşı hiss edirəm? Əlimdə bir parça pendirim belə yoxdur. Hara getdiyimi də bilmirəm” deyə sual vermişdi. Lakin tezliklə öz sualına özü də cavab tapmışdı:




Kırın bu günə qədər qorxu hissinə əsir olduğunu və

həyatında nələri itirdiyini anlamış və peşman olmuşdu. Bu ona yeni bir istiqamətdə azad və qorxusuz hərəkət etməyə kömək göstərmişdi.

İndi labirintdə özünü daha azad hiss edirmiş. Əvvəllər labirintdə əsən sərin mehdən belə təlaşlanan Kırın artıq qorxulannı məğlub etmişdi. Qorxularına qalib gəldiyi üçün hər şey ona düşündüyündən də artıq zövq verməyə başlamışdı, özünü çox xoşbəxt hiss edirmiş.

O, uzun zamandır ki, özünü bu cür yaxşı hiss etməmişdi.

Kırın anlamışdı ki, əgər qorxulanna qalib gəlməyib əvvəlki kimi düşünməyə davam edərsə xoşbəxtlik hissini tamamilə

unudacaqmış.

Kırın hər şeyin daha da gözəl olacağını düşünmüş və

xəyalında özünü daha xoşbəxt hiss edəcəyi bir mənzərəni canlandırmışdı. O, özünü sevdiyi ən dadlı pendirlərin arasında təsəvvür etmişdi. Kırın pendirlərdən ləzzətlə daddığını xəyalında canlandırmış və hətta dadını belə hiss etmişdi. Bu hiss ona çox müsbət təsir göstərmişdi.

Yeni pendirlər gözündə canlandıqca Kırın bunun həqiqət olduğunu düşünür və pendir tapacağına olan inamı daha da güclənirmiş.

Kırın bunlardan təsirlənərək divara bu sözləri yazmışdı:




Kırın əvvəllər dəyişiklikdən qorxduğu və bunun pis nəticə

verəcəyini düşündüyü üçün özünə gülmüşdü. Çünki, artıq dəyişikliyin və yeniliyin daha yaxşı nəticələr verəcəyini bilirmiş.

“Niyə əvvəllər bunu dərk edə bilmədim” deyə öz- özünə

düşünmüşdü.

Sonra yenidən güc toplamış və əvvəlkindən daha cəsarətlə labirintdə yoluna davam etmişdi. Bir az axtardıqdan sonra yenidən bir pendir stansiyasına rast gəlmişdi. Stansiyanın girişində yerdə kiçik pendir qınqlan gördükdə həyəcanlanmış

və bütün qəlbi sevinclə dolmuşdu.

Pendirlər çox gözəl görünürmüş və bu pendirlər əvvəllər yediyi pendirlərdən deyilmiş. Kırın bu pendirlərdən doyunca yemişdi. Sonra isə axşam yeməyi üçün və bir az da dostu Mırına aparmaq üçün ciblərini doldurmuşdu. O, doyduğu üçün artıq özünü gümrah hiss etməyə başlamışdı.

Sonra böyük bir ümidlə stansiyanın içərisinə daxil olmuşdu. Lakin yenə buranın boş olduğunu görüb məyus olmuşdu. Kimsə ondan əvvəl buranı tapmış və pendirlərdən sadəcə kiçik parçalar qalmışdı.

Kırın daha cəld hərəkət etsəymiş bu pendirləri başqalarından tez tapa biləcəyini anlamışdı.

Sonra o geriyə qayıdıb Mırını da çağırmağa və pendiri birgə axtarmağa qərar vermişdi. Yola çıxmazdan əvvəl divara bunlan yazmışdı:




Sonra Kırın sürətlə geri, “P” stansiyasına qayıtmış və

Mırını tapmışdı. Ona sonuncu tapdığı stansiyadan götürdüyü kiçik

pendir

parçalannı

uzatmışdı.

Dostunun

bu

fədakarlığından xoşu gəlsə də Mırın pendirləri əli ilə geri itələyib demişdi:

- Yeni pendirləri xoşlayacağımı düşünmürəm. Mən öz pendirlərimi istəyirəm, öz pendirlərim geri qayıdana kimi dəyişməyəcəm.

Kırın peşmanlıqla başını aşağı sallamış və könülsüz-könülsüz yoluna davam etmişdi. Labirintin daha ucqar yerlərinə qədər getmişdi. O dostu üçün darıxsa da yeni kəşf etdiyi şeylərdən zövq almağa başlamışdı.

Kırın onu xoşbəxt edən şeylərin tək pendirə sahib olmadığını anlamışdı.

Artıq qorxusuz hərəkət edərkən çox xoşbəxt olduğunu hiss etmiş və gördüyü işi sevməyə başlamışdı.

Fikirləri dəyişən Kırın artıq özünü "P" stansiyasında pendirsiz qaldığı vəziyyətdə hiss etdiyi kimi gücsüz hiss etmirmiş. Əksinə, daha da güclü və inamlı hiss edirmiş özünü.

Artıq qorxularının onu saxlaya bilməyəcəyini bilir və yeni bir yolda qorxusuz şəkildə irəliləyirmiş.

Kırın axtardığı şeyin bir addımlığında olduğunu hiss edirmiş. Hətta pendiri tapmış kimi bir hiss varmış içində. Bunu düşünüb gülümsəmiş və divara yazmışdı:




Kırın bir daha bu günə qədər qorxduğu şeylərin düşündüyü qədər pis olmadığını görmüşdür. İnsan sadəcə

beynində və ürəyində yaratdığı qorxu və təlaş hissi ilə hər şeyi pis görə bilər.

Bu günə qədər o, nəinki yeni pendir tapmayacağından qorxurmuş, hətta bu qorxu ilə axtarmağa cəhd belə etmirmiş.

Lakin qorxulanna qalib gəlib labirintdə pendir axtarmağa başladığı gündən gücünü qoruyub saxlamaq üçün lazım olan qədər pendir tapmışdı. Artıq daha çox pendir axtarırmış.

Pendir tapmaq istəyi və gələcəyə olan inamı onu cəsarətləndirirmiş.

Bu günə qədər onu köhnə fikirlər, qorxular çox narahat etmişdi. "P” stansiyasında oturub gözlədiyi müddətdə bir daha pendirə sahib ola bilməyəcəyindən, olsa belə bu pendirləri uzun zaman saxlaya bilməyəcəyindən qorxmuşdu. Hər zaman başına yaxşı deyil, pis şeylərin gələcəyini düşünmüşdü.

Lakin “P" stansiyasmdan aynlıb pendir axtarmağa başladığı gündən bu Vəziyyət dəyişmişdi.

Artıq Kırın hər zaman yeniliyin və dəyişikliyin onun istəyindən asılı olmayaraq baş verəcəyini bilir və bunu normal hesab edirmiş. Düşünürmüş ki, yenilik və dəyişiklik onları gözləmədikdə təəccüblü və qorxulu ola bilər. Lakin onların baş

verməsini normal qəbul etdikdə bu yeniliklər heç də qorxulu deyilmiş.

O, inanclarının və düşüncələrinin dəyişdiyini artıq özündə

də müşahidə etmiş və divara yazmışdı.







Kırın hələ də yeni Pendir tapa bilməmiş, lakin labirintdə pendir axtararkən öyrəndiyi şeyləri düşünmüşdü.

Bütün inancları dəyişmiş və bu yeni inanclar onu yeni hərəkətlərə, davranışlara sövq etmişdi. Artıq pendirsiz qaldığı vaxtlarda “P” stansiyasındakı kimi davranmırmış. İnancı və

düşüncəsi dəyişmişdi deyə, artıq davranışı və həyata olan baxışı da dəyişmişdi.

Dəyişikliyin və yeniliyin sizə ziyan verəcəyini düşünüb etiraz edə bilərsiniz. Ya da yeni tapdığınız pendirin dəyişikliyi qəbul etməyinizdə sizə kömək edəcəyinə inana bilərsiniz.

*HƏR ŞEY SİZİN NƏYİ SEÇİB ONA İNANMAĞINIZA BAĞLIDIR.*

Kırın bu dəfə divara yeni sözlər yazmışdı:

Kırın dəyişikliyi daha tez qəbul edib “P” stansiyasından çıxıb pendir axtarmağa başlasaymış indi vəziyyətin daha yaxşı olacağını dərk edirmiş artıq. Belə olan halda o, özünü fiziki və

mənəvi olaraq daha da güclü hiss edər, pendir axtardığı zaman qarşısına çıxan çətinlikləri daha rahat dəf edə bilərmiş.

Dəyişikliyin baş verdiyini qəbul etməyib zaman itirmək yerinə

dəyişikliyi əvvəldən qəbul edib ona uyğunlaşsaymış bəlkə də

axtardığı pendirləri artıq tapmış olardı.

Yenidən Kırın güclü inam və istəklə labirintin digər hissələrinə doğru hərəkət etmişdi. Mütəmadi olaraq yolunun üstündə müxtəlif kiçik pendir parçalan taparaq yemiş və

gücünü toplayaraq axtarışa davam etmişdi.

Labirintin gəzdiyi və pendir axtardığı yerlərini yadına salıb gülümsəmiş,

divarlara

yazdığı

sözləri

xatırlamışdı.

Düşünmüşdü ki, əgər Mırın da qərar verib pendir axtarmaq üçün labirintə dönsə bu yazılar ona yol göstərər.

O, doğru yolda olduğuna və Mırının bu yazılan oxuyub yolu tapacağına əmin imiş.

Divara isə uzun zamandır düşündüyü bu sözləri yazmışdı:




Kırın bundan sonra keçmişdən qurtulub yalnız gələcəyə

adaptasiya olacağına qərar vermişdi.

Əvvəlkindən daha güclü bir istəklə və sürətli şəkildə

labirintdə axtarışa davam etmişdi. Az keçmədən onun çoxdan gözlədiyi hadisə baş vermişdi.

O, bu axtarışların daha uzun zaman sürəcəyini düşünməyə başladığı vaxt bu axtarış xoşbəxt bir sonluqla nəticələnmişdi.

Kırın “Y” stansiyasında çoxdandır ki, axtardığı yeni Pendirləri tapmışdı.

İçəri girdiyində sevincdən az qala dili tutulacaqmış. Ətrafı o günə qədər heç yerdə görmədiyi və yemədiyi müxtəlif cür pendirlərlə dolu imiş. Bir anlıq gözlərini yummuş və bunun yuxu olduğunu zənn etmişdi. Gözlərini açdığında yenə də

ətrafda çoxlu pendir görmüş və bunun yuxu olmadığını anlamışdı. Kırın eyni zamanda burada balaca dostlarını, Koşarca və Koklarcanı da görmüşdü.

Koşarca sakit bir tərzdə ona başı ilə salam vermişdi.

Koklarca da özünəməxsus şəkildə əlini yelləyərək Kırını salamlamışdı. Balaca siçanların üzündən və qarınlarının böyüklüyündən onların uzun zaman burada olduqları bilinirmiş.

Kırın da öz növbəsində onların salamını almış və sevdiyi pendirlərdən bir parça götürüb yeməyə başlamışdı. İdman paltarlarını və qaçış ayaqqabılarını çıxarıb bu dəfə əvvəlkindən fərqli olaraq lazım olduqda dərhal tapa biləcəyi bir yerə

qoymuşdu. Sonra isə pendirlərdən yeməyə davam etmişdi.

Kırın yeyib doyduqdan sonra bir parça pendir götürüb başı üzərinə qaldırmış və ucadan qışqırmışdı: “YAŞASIN YENİLİK!”

Yeni pendirlərdən zövq aldıqca o, bu pendirləri tapana qədər öyrəndiklərini düşünmüşdü.

Bu günə qədər yenilikdən və dəyişiklikdən qorxaraq artıq bitmiş olan köhnə pendirin xəyalı ilə yerində sayıb boşuna nə

qədər zaman itirdiyini anlamışdı.

Onu dəyişdirən bəs nə idi? Acından ölmək qorxusumu?

“Bəli, bunun da güclü təsiri oldu” deyə Kırın düşünmüşdü.

Sonra gülümsəmiş və öz səhvlərini dərk edib onları düzəltməyə başladığı andan özünün də dəyişilməyə başladığını xatırlamışdı.

Dəyişilməyin ən güclü və effektli yolu öz səhvlərini görüb onlara gülə bilməyi bacarmaq, sonra da bütün bunları unudub yoluna davam etməkmiş.

O, kiçik dostlarından, siçanlardan bu mövzuda daha çox şey öyrənmişdi. Siçanlar baş verən dəyişikliyi çox saf-çürük etmir, qarışdırmırdı. Vəziyyət dəyişib pendir bitdiyi zaman onlar da dəyişir və yeni pendir axtarmağa başlayırmış. Kırın da bunu hər zaman xatırlayacağına və nəticə çıxaracağma qərar vermişdi.

O, öz beynini siçanların insanlardan daha yaxşı edə bildiyi şeyləri etmək üçün istifadə etməyə başlamışdı.

Keçmişdə etdiyi səhvləri düşünüb nəticə çıxarmış, bu nəticələrdən gələcəkdə atacağı addımları planlaşdırmaq üçün istifadə etmişdi. Dəyişiklikləri və yenilikləri daha asan qəbul

etmək üçün vacib olan əsas şeyləri öz beynində

qruplaşdırmışdı.

- Bəzi şeyləri sadə qəbul etmək və sürətli hərəkət etməyin vacib olduğunu bilmək.

- Baş vermiş hadisələri çətinləşdirib qorxu hissi ilə beynini qarışdırmamaq.

- Kiçik dəyişiklikləri hər zaman müşahidə etmək və baş

verə biləcək daha böyük dəyişikliklərə hazır olmaq.

Kırın artıq hər bir yeniliyə daha sürətli uyğunlaşmağın lazım olduğunu bilirmiş. Çünki zamanında uyğunlaşmasa sonradan onun üçün bu çox çətin olarmış.

Bununla yanaşı o, daha bir kəşf etmişdir. Dəyişilməyin ən böyük ünsürü insanın içindəymiş və insan özü dəyişməyəcəyi təqdirdə heç bir şeyin dəyişməyəcəyini düşünürmüş.

Kırın artıq dəyişikliyin baş verib-verməyəcəyindən asılı olmayaraq hər zaman pendir tapmağın mümkün olduğunu anlamışdı. Qorxularını dəf edib, yeniliklərdən zövq almağa başladığında bu pendirin ona mükafat olaraq verildiyini düşünmüşdü.

Düzdür, qorxu hissinin olması da lazımdır bəzən. Bu hiss təhlükəni dərk edib ona qarşı əvvəldən tədbir görmək, təhlükəsiz şəraiti təmin etmək üçün lazımdır. Lakin eyni zamanda Kırın bəzi qorxuların mənasız və gərəksiz olduğunu, insanı inkişafdan saxladığını və uğurlardan məhrum etdiyini də

bilirmiş.

İlk əvvəl dəyişiklikdən xoşu gəlməsə də, bu dəyişikliklər sonradan yeni pendirlər tapmaqda ona kömək etmişdi.

Hətta öz həyatında da düzgün seçim etməkdə belə bu dəyişikliyin ona xeyli təsiri olmuşdu.

Bütün bu öyrəndikləri beynində cərəyan edərkən dostu Mırını xatırlamışdı. "P" stansiyasının və labirintin divarlarına yazdığı cümlələri oxuyub-oxumadığını düşünmüşdü.

Görəsən Mırın onları oxuyub dəyişməyə qərar vermişdirmi? Labirintə girib həyatını xoşbəxt edəcək şeyləri kəşf etmək üçün cəsarətini toplamışdırmı?

Kırın "P" stansiyasına geri qayıdıb Mırını tapmağı düşünmüşdü. Geri qayıtmaq üçün yolu tapacağına və dostunu düşdüyü bataqlıqdan dartıb çıxaracağına inanırmış. Lakin bundan əvvəl dostunun düşüncələrini dəyişmək üçün bir dəfə

cəhd etdiyini də xatırlamışdı.

Mırın rahatlığından vaz keçməli, onu əngəlləyən qorxu hissindən azad olmalı və həyatda öz yolunu tapmalıdır. Bu isə

ilk növbədə onun fikirlərinin dəyişməsindən asılıdır. Bunu dostu üçün ondan başqa kimsə edə bilməz deyə düşünmüşdü Kırın. O, mütləq Mırını görüb başa salmalı və Mırın da artıq reallığı dərk edib dəyişməlidi.

Kırın dostunun dəyişilməsi üçün yetərli ipucu verdiyini düşünmüşdü. Mırın divardakı yazılan oxusa yolu rahatlıqla tapar, labirintdə irəliləyib məqsədlərinə çatar və xoşbəxt ola bilərdi.

Sonra Kırın "Y” stansiyasındakı böyük bir divara indiyə

kimi öyrəndiklərinin qısa xülasəsini yazmış və ətrafına böyük bir pendir şəkli çəkmişdi.

Sonra isə gülümsəyərək divara baxmış və yazdıqlarını oxumuşdur.

# DİVARDA YAZILANLAR

**DƏYİŞİKLİK BAŞ VERİR**

*Pendiri yavaş-yavaş götürürlər*

**DƏYİŞİKLİYƏ HAZIRLIQ**

*Pendirin bitməsinə hazır ol*

**DƏYİŞİKLİYİ MÜŞAHİDƏ ET**

*Pendiri tez-tez qoxla ki, köhnəldiyini anlaya biləsən*

**YENİLİYƏ UYĞUNLAŞMAQ**

*Köhnə pendiri nə qədər tez unutsan, yeni pendiri də o qədər asan tapa bilərsən*

**DƏYİŞİKLİK**

*Pendir bitir*

**DƏYİŞİKLİKDƏN HƏZZ ALMAQ**

*Macəralardan həzz al və yeni pendirin dadını hiss et*

**QƏFİL DƏYİŞİKLİYƏ CƏLD UYĞUNLAŞMAQ VƏ BUNDAN TƏKRAR-TƏKRAR ZÖVQ ALMAQ**

*Pendiri yenə yavaş-yavaş götürürlər*

Kırın “P” stansiyasından bura qədər olan məsafənin, yəni yeni pendir stansiyasına çatmaq üçün gəldiyi yolun uzunluğunu bilirmiş. Əvvəlki kimi rahat olarsa yenə də çətin vəziyyətlə

üzləşəcəyinin fərqindəymiş. Ona görə də hər gün səhər “Y”

stansiyasını kontrol edir, hər xırda dəyişikliyə belə diqqətlə

yanaşırmış. Bunlan o, gələcəkdə baş verə biləcək istənilən dəyişikliyə hazır olmaq və çətin vəziyyət qarşısında aciz qalmamaq üçün edirmiş.

“Y” stansiyasında bolluca pendir olsa belə hər gün labirintə çıxır, ətrafı araşdırır və yeni koridorlar tapırmış. Rahat olduğu bir yerə qapanmaqdansa seçimlərin, yeniliklərin çox olduğu yerlərdə olmağı daha təhlükəsiz və rahat hesab edirmiş.

Bir gün yenə də labirintdə gəzərkən qəfil bir səs eşitmişdir.

Sanki kimsə labirintdə gəzir, hərəkət edirmiş. Səs getdikcə daha da yaxınlaşmağa və yüksəlməyə başladıqda kiminsə gəldiyini anlamışdı.

Gələn bəlkə də dostu Mırın idi? Bəlkə qarşıdakı döngədən o çıxacaqmış?

Kırın gələnin dostu olması üçün çoxlu dua etmişdi....




***Son,..***

***Yoxsa yeni bir başlanğıcım?...***

**Söhbətin davamı**

Maykl hekayəni bitirdikdə ətrafa nəzər saldı və dostlarının ona baxıb gülümsədiyini gördü.

Bəzi dostlar ona təşəkkür etdi və bu hekayədən yetərli ibrət dərsi aldıqlarını söylədi.

Neytn isə dostlarına bu barədə daha sonra yenidən görüşüb fikir mübadiləsi aparmağı təklif etdi. Bu təklif hər kəsin xoşuna gəldi və hamı böyük məmnuniyyətlə razı olduğunu bildirdi. Şam yeməyindən öncə görüşməyi qərara aldılar.

Həmin axşam dostlar bir otelin lobbisində toplaşdılar, bir-biri ilə pendir və labirint barədə müxtəlif zarafatlar edərək söhbətə başladılar.

Angela üzünü dostlarına tutdu və soruşdu:

- Dostlar, bəs sizin bu həyatdakı rolunuz hekayədəki hansı surətə bənzəyir? Koşarcaya? Koklarcaya? Mırına, yoxsa Kırına?

Angelanın sualına ilk əvvəl Karlos cavab verdi:

- Mən də dünən gecə bunu çox düşündüm. İdman avadanlıqları biznesinə başlamazdan əvvəl mən də dəyişikliklə, stereotiplərlə bağlı böyük çətinliklər çəkirdim. Koklarca deyildim. Vəziyyətin dəyişdiyini ilk əvvəllər görə bilmirdim.

Koşarca da deyildim və dəyişikliyi vaxtında görüb tez adekvat tədbirlər görmürdüm, heç bir hərəkət etmirdim. Daha çox Mırına bənzəyirdim və mənə rahat bir mövqedə qalmağı üstün

tuturdum. Nəinki dəyişikliyə uyğunlaşmaq, hətta dəyişikliyi görməyi belə istəmirdim.

Bu zaman Karlosla məktəb illərindən yaxın dostluq edən Maykl onun sözünü kəsdi:

- Biz burada konkret olaraq nəyi müzakirə edirik? Daha aydın izah edərsənmi, dostum?

- İşlərimizdə və həyatımızda qarşılaşdığımız gözlənilməz dəyişikliyi - deyə Karlos cavab verdi.

Maykl yenə də gülümsəyərək soruşdu:

- Yoxsa dəyişikliklər baş verdiyində səni işdən azad etdilər?

- Yeni Pendir axtarmaq istəmirdim desək daha doğru olar.

Heç bir şeyin dəyişməməyini və əvvəlki kimi qalmağını daha çox istəyirdim deyə bu qəfil dəyişiklikdən çox məyus olurdum.

Görüşün əvvəlindən indiyə kimi sakitcə dinləyən digər dostlar da artıq rahatlıqla söhbətə qoşulmağa başladılar.

Onlardan biri də orduda xidmət edən Frank idi:

- Mırın mənə bir dostumu xatırladır. Bir firmada işləyən həmin dostumun rəhbər olduğu departament bağlanmaq üzrə

idi. Lakin, o, bunu qəbul etmir, cidd-cəhdlə çalışır, işçilərinin tez-tez yerini dəyişir, bir sözlə, departamentin bağlanmamağı üçün əlindən gələni edirdi. Şirkət isə onun kimi işində dəqiq və

nümunəvi

davranışı

ilə

seçilən

bəzi

işçilərə

yeni

departamentdə iş təklif edirdi. Dostum isə bu dəyişikliyi israrla qəbul etmirdi. Digər insanlar zaman-zaman bu vəziyyəti qəbul etməyə və yeniliyə uyğunlaşmağa başlasalar da, dostum

sonadək inad etdi. Departament bağlananda da ən çox məyus olan o oldu. Hal-hazırda əvvəllər qəbul etmədiyi bu dəyişikliyə

uyğunlaşmaq üçün bu gün məcbur olaraq böyük əziyyət çəkir.

Bu arada Cessika söhbətə qanşdı:

- Mən də yeniliyin və dəyişikliyin qəbuledilməz olduğunu düşünürdüm. Lakin bir gün qəfildən “Pendirimi oğurladılar”

Neytndan başqa bütün dostlar gülüşdü. Neytn isə ciddi bir şəkildə sözə başladı:

- Bəlkə də bu belə olmalıdır. Dəyişikliyi hər birimiz öz həyatımızda yaşayırıq. Kaş ki, mənim də ailəm bu hekayəni vaxtında eşidəydi. Çox təəssüf ki, biz də vaxtında işimizdə

meydana gələn dəyişikliyi görmədik və ya görmək istəmədik.

Artıq çox gecdir. Bir çox dükanlarımızı bağlamaq məcburiyyətində qaldıq.

Dostlar bunu eşidib çox təəccübləndilər. Çünki, hamı Neytnın ömür boyu rahat və firavan şəkildə yaşayacağım təmin edəcək bir işə sahib olduğunu düşünürdü.

- Bəs sonra nə oldu? - deyə soruşdu Cessika.

- Qəsəbəmizdə geniş məhsul çeşidi olan, ucuz qiymətli böyük bir hipermarket açıldı və bizim zəncirvari mağazalarımızın dövriyyəsi getdikcə azalmağa başladı. Bu rəqabətə davam gətirə bilmədik. İndi anlayıram ki, biz Koşarca və Koklarca kimi deyil, Mırın kimi düşünürmüşük. Olduğumuz yerdə dayandıq, dəyişikliyi qəbul etmədik və dəyişmədik. Baş

verən hadisələrə əhəmiyyət vermədik. Lakin indi böyük bir problemlə üz-üzəyik. Vaxtında bu hekayəni oxusaq Kırından ibrət alardıq.

Bayaqdan söhbəti dinləyən uğurlu bir iş adamı olan Laura dedi:

- Bu hekayəni eşidəndən sonra xeyli düşündüm. Necə

Kırın kimi ola bilərəm? Etdiyim səhvləri necə görüb nəticə

çıxara bilərəm? Necə dəyişikliyi qəbul edib daha da səmərəli şəkildə işimi davam edə bilərəm? Bunlan düşündüm və bir şey mənə çox maraqlı gəldi. Görəsən, burdakı dostlanmızdan neçə

nəfər dəyişiklikdən qorxur?

Heç kimdən səs çıxmadığını görən Laura soruşdu:

- Bəlkə əl qaldıraq?

Sadəcə bir əl qalxdığını görüncə Laura güldü:

- Deməli aramızda sadəcə bir nəfər səmimidir. Bəlkə sualı başqa cür qoysaq daha səmimi cavablar taparıq. Aramızda neçə nəfər digərlərinin dəyişiklikdən qorxduğunu düşünür.

Bu dəfə hər kəs əlini qaldırdı və bir-birinə baxıb gülməyə

başladılar.

- Bu o deməkdir ki, biz rədd etməyi, etiraz etməyi daha asan qəbul edirik, - dedi Neytn.

Maykl onun sözlərini təsdiqlədi:

- Düzdür. Biz bəzən qorxularımızın fərqində ola bilmirik.

Mənim bu hekayədə ən çox sevdiyim cümlə "Qorxmasaydın nə

edərdin" sualı oldu.

Cessika da onların dediyini dinləyib, əlavə etdi:

- Mənim hekayədən çıxardığım tək nəticə budur ki, dəyişiklik, yenilik mütləq baş verəcək. Mən qorxsam da,

qorxmasam da; istəsəm də, istəməsəm də. Bir neçə il əvvəl şirkətimiz ensiklopediya cildlərinin satışı ilə məşğul olurdu. Bir gün işçilərdən biri təklif etdi ki, bütün cildləri elektron formada disklərə yazaq və bir az ucuz qiymətə sataq. Bu cür diskləri hazırlamaq daha ucuz başa gəlirdi, nəinki kitab halında hazırlamaq. Qiymətlər də daha çox insanın ala biləcəyi həddə idi.

Lakin biz rəhbərlik olaraq buna etiraz etdik.

- Niyə etiraz etdiniz? - deyə soruşdu Neytn.

-Çünki satış nümayəndələrinin ev-ev gəzib cildləri insanlara təklif etməsini satışımızın əsas sütunu hesab edirdik.

Onlara da satdıqları bahalı məhsullara görə yüksək faizli bonuslar vermək bizim satış gücümüzü qoruyurdu. Bu formada biz uzun zaman idi ki, fəaliyyətimizi davam etdirir və bunun sonsuza qədər uğurlu olacağını düşünürdük.

- Bu sizin "pendir" idi, - dedi Neytn.

- Bəli, lakin dönüb geriyə baxdığımızda "pendirimizin"

hələ oğurlanmadığını görsəm də artıq bilirəm ki, "pendirin" də

sadəcə müəyyən qədər ömrü var və bir gün mütləq onu

"oğurlayacaqlar". Biz dəyişmədik, yeniliyi qəbul etmədik. Lakin, rəqib şirkət bunu bizim əvəzimizdən etdi və nəticədə satışımız kəskin şəkildə azaldı. Çox çətin bir böhran dövrü keçirdik. Hal-hazırda sənayedə böyük bir texnoloji inqilab yaşanmaqdadır və

bizim kimi dəyişməyən şirkətlərin gələcəyi sual altındadır. Çox yaxın bir zamanda işsiz qala bilərik.

- Dostlar, "labirintə" getmək zamanıdır, - deyə bağırdı Karlos.

Onun bu reaksiyasına Cessika da daxil bütün dostlar gülüşdülər. Bu arada Karlos üzünü Cessikaya tutub:

- Öz səhvlərinə gülə bilmək nə qədər gözəldir, deyilmi?

Bayaqdan sakit oturub danışılanlan dinləyən Frank da söhbətə qoşuldu.

- Mənim bu hekayədən çıxardığım nəticə fərqlidir. Özümü çox ciddi hesab edirəm və bu məndə təkəbbür yaradır.

Səhvlərimi görə bilmirəm. Lakin Kırının öz səhvlərini görüb nəticə çıxararaq nə qədər dəyişdiyini gördüm.

Angela soruşdu:

- Mırının da dəyişdiyini və dostu Kırın kimi yeni pendir tapdığını düşünə bilirsinizmi?

- Məncə, hə, - dedi Eleyn.

- Mən isə inanmıram, - deyə, etiraz etdi, Kori, - bəzi insanlar heç vaxt dəyişmir və hər zaman da bunun zərərini ödəyirlər. Tibb sahəsində çalışdığım üçün mən bu cür insanlarla tez-tez qarşılaşıram. Özlərini "pendirlərinə" bağlı hiss edirlər.

"Pendirlərini itirdikdə" isə özlərini suçsuz sayır, günahı başqalannda axtarır və daima öz bəxtsizliyindən şikayətlənirlər.

Özlərini dəyişikliyi və yeniliyi qəbul edib yoluna davam edən insanlara nisbətən çox pis hiss edirlər.

Neytn sanki öz-özünə danışırmış kimi sakit-sakit dedi:

- Məncə bu dəqiqə ən əsas, ən vacib məsələ keçmişi unudub yola davam etmək və irəli getmək üçün nəyə

ehtiyacımızın olduğunu dəqiq bilməkdir.

Araya bir müddət sükut çökdü və heç kimin səsi çıxmadı.

Sükutu yenə də Neytn pozdu:

- Qəbul etməliyəm ki, yaşadığımız ölkənin fərqli- fərqli yerlərində nələrin olduğunu, hansı iqtisadi dəyişikliyin baş

verdiyini görürdüm. Lakin bunun bizə heç bir təsiri olmayacağını düşünürdüm. Bu böyük bir səhv idi. Artıq dəyişməliyik. Dəyişmək yeniliyə etiraz edib onu qəbul etməməkdən daha yaxşıdır. Bəlkə də daha öz "pendirimizi''

axtarıb tapmağın zamanıdır.

- Nə demək istəyirsən bununla? - deyə Frank soruşdu.

- Köhnə xırda mağazalanmızı satsaydıq və əvəzində digər rəqiblərimizlə rəqabətə girə biləcək bö yük mağaza açsaydıq bu gün vəziyyətimizin necə olacağını düşünə bilirəm.

Laura da söhbətə müdaxilə etdi:

- Bəlkə də Kırın divara "Macəradan həzz alın və pendirinizi tapın" yazarkən buna işarə edirdi.

Frank yenidən başını aşağı əyib dodağının altında sakit səslə pıçıldadı:

- Düşünürəm ki, bir sıra şeylər heç zaman dəyişmir.

Mənim üçün bəzi dəyərlər var ki, mən hər zaman onlara sadiq olmalıyam. Lakin indi görürəm ki, yeni "pendirimi" vaxtında, daha əvvəl tapsaydım indi daha yaxşı durumda olardım.

Bayaqdan hər kəsi dinləyən Riçard dedi:

- Bir şey soruşum, Maykl. Bu cür gözəl hekayədən çıxardığın nəticəni şirkətinə necə tətbiq edə bildin?

Dostlar hələ tam dəqiqliklə bilməsələr də, Riçardın həyatında bəzi yeni dəyişiklik vardı. Həyat yoldaşından ayrılmışdı. İndi həm uşaqlarını böyütməyə, həm də işlərini əvvəlki kimi davam etdirməyə çalışırdı.

Maykl onun sualını dinləyib cavab verdi:

- Əvvəllər fikirləşirdim ki, gələcəyi görməyə, məqsədləri, hədəfləri düşünməyə gərək yoxdur. Gündəlik işləri görür və

gündəlik problemlərin həllinə çalışırdım. İşimin sadəcə bundan ibarət olduğunu düşünürdüm və az qala bütün 24 saatımı bu problemlərin həllinə həsr edirdim. Həyatda heç nədən zövq almırdım. Sanki, bir tısbağa yarışına girmişdim. "Pendirimi kim oğurladı?" hekayəsini eşitdikdən və bu hekayədə Kırının necə

dəyişdiyinin şahidi olduqdan sonra anladım ki, işim "yeni pendir axtarmaqdır". Bunu dəqiq və real olaraq həyata keçirməyə başladım.

Nəticədə mən və şirkətdə mənimlə

birlikdə çalışan hər kəs yenilikdən və dəyişiklikdən faydalanıb işində daha uğurlu olmağa və həyatından zövq almağa başladılar.

- Çox maraqlıdır, - dedi, Angela və sözünə davam etdi: -

Kırının bütün qorxularına qalib gəlib “yeni pendiri” düşünməyə

başlaması və hətta pendiri tapdığını xəyalında canlandırması mənimçün hekayənin ən həyəcanlı yeri idi. Bundan sonra labirintdə pendir axtarmaq qorxusuz və hətta əyləncəli olmuşdur.

Riçard yenidən söhbətə girişdi:

- İşlədiyim şirkətin rəhbəri mənə dəyişikliyə və yeniliyə

ehtiyac olduğunu demişdi. Düşünürəm ki, o, bununla mənim

dəyişməli olduğumu demək istəyirmiş. Lakin, mən qəti şəkildə

etiraz etdim və onu dinləmək istəmədim. Bizə göstərmək istədiyi “yeni pendir”in nə olduğunu və bizim bundan nə

qazana biləcəyimizi görə bilmədim. Lakin bu hekayədən sonra

“yeni pendir”i görmək, və ondan həzz almaq fikrini çox sevdim.

Bu fikir insanın beynini aydınlaşdırır, qorxunu azaldır və

dəyişikliyə daha tez uyğunlaşmağa kömək edir. Bəlkə bunu evdə ailə həyatımıza da tətbiq edə bilərik. Mənim kimi övladlarım da həyatında heç bir şeyin dəyişməməli olduğunu düşünürlər. Yeniliklərə əsəbiləşir və onu qəbul etmirlər. Yəqin ki, gələcəyin onlar üçün nə gətirəcəyindən qorxurlar. Mən bir valideyn olaraq onlara həyatdakı “yeni pendir”i göstərə və izah edə bilmədim. Onların beynində bu “pendir”in rəsmini, xəyalını belə yarada bilmədim. Hərçənd ki, bunu özüm də görə

bilmirdim.

Dostlar hamısı sakit dayanmışdı. Ortalığa dərin bir sükut çökmüşdü. Bəziləri işini, bəziləri ailəsini düşünürdü. Sükutu Eleyn pozdu:

- Bir çoxunuz demək olar ki, işindən söhbət açdı. Lakin, mən hekayəni dinlədikcə şəxsi həyatımı düşünürdüm. Artıq düşünürəm ki, mənim şəxsi həyatımla bağlı münasibətlərimdə

çox problemim var və bu mənə "köhnə pendir"i xatırladır.

Kori də gülümsünərək onun dediklərinə qoşuldu:

- Məndə də eynilə sənin olduğun vəziyyətdir. Gərgin münasibətlərdən qurtarmağın vacib olduğunu düşünürəm artıq.

Angela üzünü onlara tutub dedi:

- Bəlkə də münasibətlər deyil, davranışlar köhnəlmişdir.

Bəlkə münasibətləri bitirməkdənsə bu münasibətləri pisləşdirən davranışlardan qurtarmaq lazımdır. Bu zaman daha gözəl düşünüb, daha gözəl davrana bilərik.

Kori Angelaya cavab verdi:

- Tamamilə razıyam. Çox gözəl bir məqama toxundun.

"Yeni pendir" bəlkə də yeni bir insan, yeni bir münasibət, yeni bir davranışdır.

Mən də eynilə bunu etmək istəyirəm, - dedi Riçard, -

köhnə münasibətləri deyil, köhnə davranışları tərgitmək istəyirəm. Eyni cür davranışlar hər zaman eyni cür nəticə verir.

İşimizi deyil, iş yerimizdəki davranışımızı dəyişməliyik.

Nəticədə şirkətimiz də dəyişər və biz bu işdə əməyi olan insanlardan, işçilərdən biri olarıq. Nəticədə karyeramızda da yeniliyə, yüksəlişə nail ola bilərik.

Digər bir şəhərdə yaşayan, buraya məhz dostları ilə

görüşmək üçün gələn, lap əvvəldən sakit dayanıb hamını dinləyən Beki də söhbətə qoşuldu:

- Hekayəni və sizin bu hekayə ilə bağlı düşüncələrinizi dinlədikcə özümə gülməyə başladım. Mən də uzun müddət eynilə Mırın kimi yaşadım. Eyni işi gördüm, eyni şeyləri təkrarladım, dəyişiklikdən, yenilikdən hər zaman qorxdum.

Ətrafımdakı insanların da eyni cür davrandığının fərqində

deyildim. Qorxuram ki, bu cür düşüncələri bilmədən öv-ladlarıma da aşılamışam. Lakin, bu hekayədən sonra əvvəlkindən fərqli olaraq düşüncələrimizin dəyişilməsinin bizi daha da irəliyə aparıb, işlərimizdə uğur qazandıra biləcəyini

düşünürəm. Bunun eyni zamanda şəxsi həyatımızın da xoşbəxt keçməsinə təsir edəcəyinə inanıram. Oğlum liseyin 2-ci sinfində oxuyarkən həyat yoldaşımm iş yerini dəyişməsi ilə

əlaqədar olaraq İllinoysdan Vermonta köçmək məcburiyyətində qaldıq. Bu dəyişiklik oğluma çox pis təsir etdi. O, lisey yoldaşlanndan ayrılacağı üçün çox məyus olmuşdu.

Oğlum həmçinin İllinoysda oxuduğu liseyin üzgüçülük komandasında yaxşı bir üzgüçü idi və bu idman növünü çox sevirdi. Lakin Vermontdakı liseyin üzgüçülük komandası yox idi.

Buna görə Vermonta köçdüyümüz üçün çox əsəbi idi.

Lakin, çox keçmədən oğlum Vermontdakı dağlara aşiq oldu və buralara o qədər öyrəşdi ki, artıq burada özünü çox yaxşı hiss edirdi. O, eyni zamanda oxuduğu məktəbin xizəkçilik komandasına yazılmışdı. Hal-hazırda Koloradoda xoşbəxt yaşayır. Əgər vaxtında bu hekayəni eşidib həyatımıza tətbiq etsəydik bu gün ailələrimiz daha xoşbəxt idi və biz onlan bir çox sıxıntıdan qurtarmış olardıq.

- Evə gedən kimi hekayəni uşaqlarıma danışıb onlardan mənim bu hekayədə kimə bənzədiyimi soruşacam, - dedi Cessika: - Mırın və Kırına, yoxsa Koklarca və Koşarcaya? Bunun köməkliyi ilə eyni zamanda ailəmiz üçün də nəyin “köhnə

pendir”, nəyin isə “yeni pendir” olduğunu dəqiqləşdirək.

- Çox əla fikirdir! - Riçard təsdiq etdi.

Frank da onlara qoşuldu:

- Düşünürəm ki, mən də Kırın olub öz “yeni pendir”imi tapıb ondan həzz alacam. Ordudan azad ediləcəyi üçün narahat olan, dəyişiklikdən qorxan digər dostlarıma da bu

hekayəni danışacağam. Əminəm ki, onlar üçün də maraqlı olacaq və qızğın müzakirə gedəcək.

- Bəli, bax biz işimizi, şirkətimizi bu cür böyütdük, - dedi Maykl, - bu hekayədən nəticə çıxartdıq, çoxlu fikir mübadiləsi apardıq və əldə etdiyimiz təcrübələri öz işimizə tətbiq etdik.

Nəticə isə uğurlu oldu. Dəyişiklik və yeniliklə bağlı müzakirələr çox səmimi, mehriban keçirdi. Bu tezliklə bütün şirkətə yayıldı və təsiri də get-gedə güclənməkdə idi.

- Necə? - deyə soruşdu Neytn.

- Şirkətimiz irəlilədikcə, uğurlarımız artdıqca özünü zəif hesab edən çox insan gördük. Onlar yenilikdən, dəyişiklikdən çox qorxurdular və buna etiraz edirdilər. Bir sözlə şirkətin təlqin etdiyi bütün dəyişikliyə qarşı çıxırdılar.

- Kaş ki, bu hekayəni lap əvvəllər eşidəydim, - deyə Maykl sözünə davam etdi. İşimiz elə bir duruma gəlmişdi ki, ən yaxın dostlarımız da daxil olmaqla bir çox insanı işdən çıxarmaq məcburiyyətində qalmışdıq. Bu bizim hamımız üçün çox çətin oldu. Lakın işdən çıxanlar da, qalanlar da bu hekayənin hər şeyi fərqli görməkdə və daha tez dəyişməkdə güclü təsirə malik olduğunu söylədilər. İşdən ayrılanlar hətta yeni iş tapmaqda çətinlik çəkdiyini, lakin bu hekayədən çıxardığı nəticənin ona çox kömək etdiyini etiraf edirdi.

- İşdən ayrılandan sonra onlara nə kömək olmuşdur ki? -

deyə Angela soruşdu.

Maykl cavab verdi:

- Mənə dediklərinə görə, qorxularına qalib gəldikdən sonra onlara təsir edən ən müsbət şey "yeni pendir"in onları

gözlədiyini xatırlamaq olmuşdur. Xəyallarda canlandırdıqları

"yeni pendir" onlan cəsarətləndirmiş, işlərində müvəffəqiyyət qazanmağa kömək olmuşdu. Bir sözlə hekayədən sonra çox uğurlu olmuşdular.

Laura soruşdu:

- Bəs şirkətdə qalanlar necə oldu?

- Onlar da yaranmış çətinliyə, dəyişikliyə etiraz edib, şikayətlənmək əvəzinə öz "yeni pendir"ini düşündülər. "Yeni pendir axtarmaq zamanıdır" deyib, işə davam etdilər. Bu da bizə zaman qazandırdı. Çox keçmədi ki, əvvəl etiraz edənlər də

dəyişikliyin xeyrini gördülər və hətta bizə kömək etməyə

başladılar.

- Səncə bu niyə belə oldu? - Kori soruşdu.

- Çünki, hər biri şirkətin düşdüyü çətin vəziyyəti görürdülər. İşlədiyiniz şirkətlərdə rəhbərlik dəyişiklik edəndə

nə baş verir? İşçilər bunu yaxşı, yoxsa pis qarşılayır?

- Pis, - dedi Frank.

- Nə üçün? - soruşdu, Maykl.

Karlos cavab verdi:

- Çünki hər şeyin dəyişilməsini deyil, əvvəlki kimi qalmasını istəyirlər. Dəyişikliyin onlar üçün pis nəticə

verəcəyini düşünürlər. Bütün kollektivlərdə pis fikirdə olanlar var ki, əgər onlar bir şeyə pis desələr digər insanlar da onlarla razılaşır.

Maykl təsdiqlədi:

- Bəli, tamamilə razıyam, özləri elə düşünməsələr də, özlərini hər şeyi bilən, ağıllı insan kimi göstərmək üçün razılaşarlar bu cür insanlarla. Bu da şirkətlərin inkişafını hər zaman əngəlləyər.

Beki də söylənənlərə əlavə olaraq öz fikrini bildirdi:

- Ailələrdə də bu cür şeylər baş verir. Atalarla analar və ya uşaqlar arasında da bu problemi görmək olar. Siz necə, bu hekayədən sonra bir fərqlilik, dəyişiklik yaşadınızmı? - deyə

Beki Maykldan soruşdu.

- Bəli, yaşadıq. Çünki, artıq heç kimsə Mırına bənzəmək istəmirdi.

Bu sözlərdən sonra hər kəs güldü.

Neytn davam etdi:

- Bu, yaxşı bir uğurdur. Ailəmizdə kimsə Mırına bənzəmək istəməz. Əksinə, dəyişikliyi qəbul edərlər. Niyə bu hekayəni bizə keçən dəfəki görüşümüzdə danışmadın? Çox köməyimizə

çatardı.

Maykl yenə sözünə davam etdi:

- Bu kitabın bizə nə qədər kömək olduğunu gördükdən sonra bunu birlikdə iş gördüyümüz adamlara da söylədik.

Həmin insanların da bənzər problemlər yaşadığını bilirdik.

Onlara bizim onlar üçün “yeni pendir” ola biləcəyimizi və

birlikdə uğur qazanacağımızı anlatdıq və nəticədə çoxlu iş

sifarişi aldıq.

Bu sözlər Cessikanın beynində yeni parlaq ideyalar yaratdı. Sabah üçün çoxlu iş və satış görüşmələri olduğunu xatırladı. Saatına baxıb ayağa qalxdı və dedi:

- Artıq köhnə “pendir stansiyasından” ayrılmalı yeni

“pendirlər” axtarmalıyam.

Dostlar gülüşdülər və ayağa qalxıb sağollaşmağa başladılar. Düzdü hamısı söhbətə davam etmək istəyirdi, lakin getmək lazım idi. Onlar ayrılarkən bir daha Maykla təşəkkür etdilər.

Maykl da öz növbəsində cavab verdi:

- Hekayəni bəyəndiyiniz üçün sevindim. Şad oldum ki, sizə

bir köməyim oldu. Ümid edirəm ki, siz də bu hekayəni başqalarına danışıb onlara da kömək edəcəksiniz...